

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 163 (21.315)

21 avqust 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Ordubad rayonunda yeni quruculuq ünvanlarının sayı artır



*Muxtar respublikanın iqtisadiyyatında əldə olunan nailiyyətlər Ordubad rayonunda da tikinti-abadlıq işlərinin həcminin artmasına, şəhər və kəndlərin simasının yeniləşməsinə şərait yaradıb. 2014-cü ilin birinci yarısının nailiyyətlərini tikinti-quruculuq sahəsində aydın şəkildə görmək olar. Ənənəvi olaraq bu ilin ilk 6 ayında belə işlər rayon mərkəzi ilə yanaşı, kənd yaşayış məntəqələrini də əhatə edib. Tikinti-quruculuq işlərinin təyinatının müxtəlif istiqamətləri əhatə etməsi xüsusilə diqqətçəkəndir.*

Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, 2015-ci ilin yanvar-iyun aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 29 milyon 62 min 800 manat və ya 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 2 faiz artaraq 26 milyon 851 min 200 manat təşkil edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında" 2014-cü il 17 sentyabr tarixli Sərəncamına əsasən, görkəmli maarifpərvərin ev-muzeyinin yaradılması istiqamətində bir sıra işlər həyata keçirilib və yeni bina inşa edilib. Muzeydə görkəmli pedaqoqun həyat və yaradıcılığını əks etdirən eksponatların nümayiş etdirilməsi üçün ekspozisiya zalı və iş otaqları yaradılıb. Bina təhvilə hazırdır.

Muxtar respublikada nəqliyyat idarəetmə sisteminin təkmilləşdirilməsi, avtomobillərin texniki vəziyyəti və onların təhlükəsiz hərəkətinin təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bu tədbirlərin davamı olaraq, Ordubad şəhərində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Ordubad Rayon Müayinə Mərkəzi üçün bina inşa edilib. İnşaat işləri Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsi tərəfindən həyata keçirilib. Binanın yaxın günlərdə istifadəyə verilməsi nəzərdə tutulub. İki mərtəbədən ibarət olan müayinə mərkəzinin binasının birinci mərtəbəsində avtomobillərin texniki baxışa hazırlığı, texniki baxışın keçirilməsi, qeydiyyat aparılması üçün zal və xidməti otaqlar, ikinci mərtəbədə isə iş otaqları və bufet yerləşəcək. Müayinə mərkəzi bu sahədə tətbiq olunan ən qabaqcıl texnologiyalarla təchiz ediləcək. Burada kompüter dəsti, monitorlar qoyulacaq, xarici ölkələrin istehsalı olan texniki müayinə avadanlıqları quraşdırılacaq. Yeni avadanlıqlar minik və yük avtomobillərinin əyləc sisteminin, mühərrikdən atmosferə atılan işlənmiş qazların tərkibində olan zərərli tullantıların normativ standartlara uyğunluğunun, sükanın idarəetmə qollarının və almacıqlarının yoxlanılmasına, işıqların tənzimlənməsinə və şinlərin protektor naxışlarının ölçülməsinə imkan verəcək. Baxışdan keçən avtomobillər hər mərhələni qət etdikcə onun detallarının texniki vəziyyəti barədə məlumatlar kompüterdə əks olunacaq və Dövlət Yol Polisi İdarəsinin mərkəzi qeydiyyat sisteminə ötürüləcək. Texniki baxış başa çatdıqdan sonra müayinənin yekun nəticələri nəqliyyat vasitəsinin sahibinə təqdim ediləcək.

Ordubad şəhərində dəmir yolu vağzalı üçün yeni binanın və "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin Ordubad yol sahəsinin inzibati binasının tikintisi də uğurla davam etdirilir.

Muxtar respublikamızın kənd yaşayış məntəqələrində məhiyyət və məzmunca yeni infrastrukturun yaradılması xüsusi diqqət göstərilən sahələrdəndir. Görülən işlərin müvəffəqiyyətli nəticələrini Ordubad rayonunun əksər kəndlərində görmək olar. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, rayonun Tivi kəndində məktəb binası əsaslı şəkildə təmir olunur, kənd mərkəzi, həkim ambulatoriyası, xidmət mərkəzi inşa edilir. Hazırda adıçəkilən obyektlərin yerləşdiyi ərazidə abadlıq işləri aparılır, binalarda suvaq və boya, üzləmə işləri həyata keçirilir. Rayonun Gilançay kəndində yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin tikintisi sürətlə aparılır. Tivi və Gilançay kəndlərində aparılan quruculuq işlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsi həyata keçirir.

Muxtar respublikamızda iqtisadiyyatın dinamik inkişafı, istehsalatda müasir texnologiyaların tətbiqi, yeni infrastruktur layihələrin icrası nəticəsində ixtisaslı kadrlara olan tələbat ildən-ilə artmaqdadır. Buna görə də təhsilin bütün pillələri kimi, peşə təhsilinin inkişafı da diqqət mərkəzində saxlanılır. Bu baxımdan muxtar respublikada əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" mühüm əhəmiyyət daşıyır. Dövlət proqramının icrası ilə əlaqədar rəqabətqabiliyyətli ixtisaslar üzrə peşə hazırlığının təşkili, peşə standartlarının tətbiqi və peşə seçiminə kömək məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri də Ordubad Rayon Peşə Məktəbi üçün ayrılmış binada əsaslı təmir işlərinin aparılmasıdır. "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən əsaslı təmir olunan binada kommunikasiya xətlərinin çəkilişi, üzləmə, boya, suvaq işləri aparılır, ərazidə genişmiqyaslı abadlıq işləri həyata keçirilir.

Abad və rahat yollar inkişafın göstəricisidir. Bu baxımdan yeni yolların salınması, mövcud yollarda bərpa işlərinin aparılması sakinlər tərəfindən razılıqla qarşılanır. Rayon ərazisində yolların abadlaşdırılmasına da xüsusi diqqət yetirilir. Bu ilin ilk altı ayında Ordubad Rayon Yol Təmir-İstismar İdarəsi tərəfindən Ordubad şəhərdaxili, Dəstə-Dırnıs, Ordubad-Nüsnüs, Aza-Biləv-Parağa, Ordubad-Naxçıvan avtomobil yollarında təmir işləri aparılıb, dağlıq ərazilərdəki avtomobil yollarının istismara yararlılığına müntəzəm olaraq nəzarət edilib. Bəhs olunan dövrdə adıçəkilən idarə tərəfindən avtomobil yollarının əsaslı və cari təmir işləri üçün 226853 manat vəsait xərclənib.

Məlumat üçün bildirək ki, bu il Ordubad şəhərində müasir aviakassa və 774 şagird yerlik 3 nömrəli tam orta məktəbin binası istifadəyə verilib. Ümumiyyətlə, bütün bu sadalanan işlər insanların daha yaxşı şəraitdə yaşamasına və işləməsinə, uşaq və yeniyetmələrin yaxşı təhsil alma imkanlarının artırılmasına, əhalinin məşğulluğunun təmin olunmasına, kənd və şəhər arasındakı infrastruktur fərqinin aradan qaldırılmasına hədəflənib.

Səbuhi HÜSEYNOV

## Növbəti əmək yarmarkası Şahbuz rayonunda keçirilib

*Tədbiri giriş sözü ilə açan Şahbuz Rayon Məşğulluq Mərkəzinin direktoru Fəxrəddin Bağırov muxtar respublikada həyata keçirilən məşğulluq tədbirlərindən danışıb.*

Bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın uğurlu icrası işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azalması ilə nəticələnib. Muxtar respublikamızda da həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" bu məqsədə xidmət edən mühüm dövlət sənədidir. Proqramda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi istiqamətində görülən işlər muxtar respublika sakinləri tərəfindən insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına qayğı kimi dəyərləndirilir.

Əhalinin məşğulluğunun təmin olunması məqsədilə işaxtaran vətəndaşların münasib işlə təmin edilməsi, onların haqqıödənilən ictimai işlərə cəlb olunması, habelə peşə hazırlığı sahəsində muxtar respublikada həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bir daha onu göstərir ki, blokada şəraitində yaşaya-yaşaya hər hansı problemin həllinə nail olmaq mümkündür. İndi regionda əhalinin məşğulluğunun təmin edilməsində ən çevik yol olan əmək yarmarkalarından geniş istifadə edilir. Məşğulluq orqanları bu işdə mühüm rol oynayırlar. İşəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır, bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir.

Yarmarkalara hazırlıq dövründə həyata keçirilən təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin, işaxtaran vətəndaşların fəal iştirakını təmin edib.

İşaxtaran vətəndaş İbrahim Əsgərov dövlətimiz tərəfindən əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən işlər üçün minnətdarlığını bildirərək vurğulayıb ki, bu gün məşğulluq sisteminin inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, əmək bazarının tənzimlənməsi və qeyri-məşğul əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin sosial-iqtisadi siyasətinin əsas tərkib hissəsidir.

Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşı Cəlal Paşayev çıxışında qeyd edib ki, son illərdə rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, bunun da nəticəsində yüzlərlə insan müvafiq işlə təmin olunub. Keçirilən əmək yarmarkalarına işaxtaran əhalinin marağının böyük olması onu göstərir ki, işaxtaranlarda bu yarmarkalarda ixtisaslarına müvafiq iş tapmalarına böyük inam vardır.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 9 təşkilatdan 120 boş iş yerinin çıxarıldığı yarmarkada 21 nəfərə işə göndəriş verilib.

Növbəti yarmarka bu gün Culfa rayonunda keçiriləcək.

## Soyuducu anbarlara 598 ton məhsul tədarük olunub




Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında kənd təsərrüfatı mühüm rol oynayır. 2015-ci ilin ölkəmizdə, eləcə də muxtar respublikamızda "Kənd təsərrüfatı ili" elan olunması isə aqrar sektorun yeni mərhələyə qədəm qoymasına şərait yaradıb. Dövlət tərəfindən aqrar sahədə müasir infrastrukturun yaradılması, kənd təsərrüfatına dövlət qayğısının artırılması, aqrolizinq xidmətinin genişləndirilməsi, eləcə də kreditlərin verilməsinin sürətləndirilməsi aqrar sahənin inkişafına müsbət təsirini göstərir. Əldə olunmuş nailiyyətlərin əsas səbəblərindən biri muxtar respublikada sahibkarlığın inkişafına geniş meydan verilməsi, bu sahəyə dövlət yardımının ilbəil artırılması, sahibkarların təcrübəsinin daha da zənginləşdirilməsi istiqamətində müvafiq tədbirlərin reallaşdırılmasıdır. Regionda kənd təsərrüfatının inkişafı ilə bağlı əldə olunmuş müvəffəqiyyətlər istər ərzaq təhlükəsizliyinin təmin olunmasında, istərsə də emal müəssisələrinin xammalla təchizatında mühüm rol oynayır. Bu cəhətdən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" mühüm əhəmiyyət daşıyır.

Aqrar sektorun inkişafında mühüm vəzifələrdən biri də soyuducu anbarların yaradılmasıdır. Muxtar respublikada soyuducu anbarların işə salınması yerli meyvə-tərəvəzlərin ilboyu bazarlara çıxarılmasına imkan verir. Soyuducu anbar normal temperaturda pozulmağa meyilli olan qidaların aşağı temperaturda mühafizə edilməsinə imkan verən infrastrukturdur. Əhalinin ərzaq məhsullarına olan tələbatının ilboyu ödənilməsinin təmin edilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinin stimullaşdırılması, məhsulların tədarükü, saxlanması və satışı infrastrukturunun yaradılması məqsədilə yerli investisiyalar əsasında soyuducu anbarların sayı 20-yə, ümumi tutumu 12 min 250 tona çatdırılmışdır. Artıq meyvə-tərəvəz məhsullarının tədarükü, saxlanılması və satışı üzrə müasir soyuducu anbar komplekslərində meyvə və tərəvəzin qəbuluna başlanılmışdır. 1 iyul 2015-ci il tarixdən 20 avqust 2015-ci il tarixədək muxtar respublika ərazisində fəaliyyət göstərən soyuducu anbarlara 598 ton məhsul tədarük olunmuşdur ki, bunun da 516 tonu kartof, 50 tonu soğan, 29 tonu ərik, 3 tonu kələm məhsuludur.

Xəbərlər şöbəsi

## Naxçıvan dünən və bu gün

# Çörək növbələrindən bolluq dövrünə

*Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ölkəmizin digər bölgələri kimi, Naxçıvan da aclıq və səfalətlə üz-üzə qalmışdı. İnsanlar gecədən səhərədək Naxçıvan şəhərindəki dəmiryol vağzalının yaxınlığında yerləşən çörək zavodunun qarşısında növbəyə durur, səhərə yaxın 3 ədəd çörək normasını alıb evinə dönən ailə başçısı və ailəsi, ən azı, o gün üçün təsəlli tapırdı. Ertəsi gün yenə çörək növbəsi, nigarançılıq davam edirdi. Bəzən insanlar arasında yayılan "Naxçıvanın birgünlük taxıl ehtiyatı qalıb" xəbəri əhalinin o üç çörəyə də ümidini kəsirdi.*

Kəndlərimizdə vəziyyət bundan da acınacaqlı idi. Ətraf kəndlərin əhalisi Naxçıvan şəhərinə üz tutub günlərini çörək zavodunun qarşısında keçirir, ala biləcəyi 3 çörəyi, ucqar dağ və sərhəd kəndlərindən gələnlər isə tapıb aldığı bir kisə unu ailəsinə, uşaqlarına çatdırmaq üçün yanacaq qıtlığı üzündən nəqliyyatın işləmədiyi bir vaxtda minbir əziyyətlərlə üzləşirdi.

### İtirilməkdə olan inamın bərpası

"Pis günün ömrü az olar", – deyiblər. Taleyin qisməti, tarixin hökmü ilə 1990-cı ildə Moskvadan Bakıya, iki gün sonra isə Naxçıvana dönən ulu öndər Heydər Əliyev müstəqillik yolunun yolçularına düzgün yol göstərdi, xalqın itirilməkdə olan inamını özünə qaytardı. Naxçıvanda torpaq islahatları aparıldı, torpaq sahibinə verildi. Naxçıvan şəhərində gününü çörək zavodunun qarşısında çörək növbəsində keçirən kəndli artıq torpağa toxum əkməyə başladı, taxıl əkilib-biçildi. Kənddə yaddan çıxmış un dəyirmanları işə salındı. Bu, planlı sovet təsərrüfat sistemindən bazar iqtisadiyyatına keçidin başlanğıcı, böyük inkişafın tarixə yazılan "Naxçıvan modeli" idi. Bu islahatlar torpağı kəndliyə verib onu taleyin ümidinə buraxmaq yox, ona daha çox qayğı göstərib, onun daha çox məhsul əldə edəcəyinə hesablanmış müdrik addım idi. Sonralar bu müsbət təcrübə ölkəmizin digər regionlarında da tətbiq edildi, keçmiş postsovet ölkələri, o cümlədən Rusiya da bu təcrübədən bəhrələndi.

### Su həyat deməkdir

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ölkəmizdə hökm sürən anarxiya, xaos, özbaşınalığın dağıdıcılıq prosesləri, digər sahələrdə olduğu kimi, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə qurulan suvarma sistemləri şəbəkələrindən də yan keçmədi, nasos stansiyaları sökülüb dağıdıldı, sututarlar, arx və kanallar baxımsızlıq üzündən yararsız vəziyyətə düşdü. Xalqın təkidli tələbi ilə dahi rəhbərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və iqtisadi inkişaf bütün sahələrdə olduğu kimi, torpağın əkilib-becərilməsində və məhsuldarlığın artırılmasında mühüm rol oynayan bu sahəyə vurulan ziyanın da aradan qaldırılmasına və digər meliorasiya-irriqasiya tədbirlərinin həyata keçirilməsinə əlverişli şərait yaratdı. Mövcud sututarlarda təmir-bərpa işləri aparıldı, suvarma suyunun itkisiz olaraq əkin sahələrinə çatdırılmasında mühüm rol oynayan arx və kanallar bərpa edildi. Öz axarı ilə suvarılması mümkün olmayan torpaq sahələrinə boru xətləri çəkildi, nasos stansiyaları quruldu, subartezian quyuları qazılıb istifadəyə verildi. Ölkə başçısı cənab İlham Əliyevin 2006-cı ilin dekabr ayında muxtar respublikamıza səfəri zamanı yüz milyon kubmetr tutumu olan Heydər Əliyev Su Anbarı istifadəyə verildi. Su anbarından 24,2 kilometr sağ sahil və 30,35 kilometr uzunluğu olan sol sahil kanalları çəkildi. Ümumilikdə, 16 min 830 hektar torpaq sahəsinin suvarılmasına imkan yarandı, o cümlədən 6 min 919 hektar əkilməyən torpaq sahələri əkin dövriyyəsinə qatıldı. Həmçinin son illər 150 milyon kubmetr tutumu olan Arpaçay və 7 milyon 190 min kubmetr tutumu olan Uzunoba Su anbarları təmir olunaraq istifadəyə verildi. Cari ildə də bu istiqamətdə işlər uğurla davam etdirilir. Kəngərli rayonunun suvarma sistemlərinin təkmilləşdirilməsi məqsədilə hazırlanmış layihəyə uyğun olaraq, Uzunoba Su Anbarından Kəngərli rayonunun ərazisinə su xətti çəkildi, ikipilləli nasos stansiyası tikildi; bu, 5 min 800 hektar torpaq sahəsinin əkin dövriyyəsinə qatılmasına şərait yaratdı. Bunun 3 min 300 hektarı öz axımı, 2 min 500 hektarı isə nasos stansiyası vasitəsilə suvarılır. Hazırda muxtar respublikamızda əkin sahələrinin suvarılması Araz Su Anbarı istisna olmaqla, tutumu 303 milyon 520 min kubmetr olan irili-xırdalı 30-a qədər su anbarı, 845 subartezian quyusu, 107 nasos stansiyası, 1200 kilometr uzunluğu olan arx və kanallar vasitəsilə həyata keçirilir. Külli miqdarda dövlət vəsaiti xərclənərək ərsəyə gətirilən suvarma sistemlərindən, sututarlarda toplanan sudan səmərəli istifadə mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılır. Əkin sahələrində mütərəqqi metod olan şırım üsulundan istifadə etməklə bol məhsul yetişdirilir, suvarma suyundan səmərəli istifadə olunmaqla torpağın şoranlaşmasının qarşısı alınır.



### Texnika əkinçinin sağ əlidir

Muxtar respublikanın əlverişli iqlim şəraiti, bərəkətli, münbit torpaqları, kənd təsərrüfatının inkişafına hərtərəfli dövlət qayğısının göstərilməsi mövcud torpaq potensialından səmərəli istifadə edilməsinə, həmçinin əkin dövriyyəsinin genişləndirilməsinə böyük imkanlar açıb. Təsərrüfat suyuna olan tələbatın ödənilməsi, torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə kreditlərin və müasir kənd təsərrüfatı texnikalarının verilməsi, aqrotexniki xidmət sarıdan köməkliklərin göstərilməsi bu sahəyə olan dövlət qayğısının daha bir nümunəsidir. Təbii ki, əkin-biçin kampaniyasının mütəşəkkil keçirilməsində, yetişdirilən məhsulun vaxtında və itkisiz toplanılmasında müasir kənd təsərrüfatı texnikalarından səmərəli istifadə mühüm əhəmiyyət daşıyır. Bu baxımdan torpaq mülkiyyətçilərinin və fermerlərin kənd təsərrüfatı texnikaları ilə təmin olunması olduqca vacib məsələlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti aqrar bölmənin kənd təsərrüfatı texnikaları ilə təchizatını, müxtəlif servis xidmətlərinin göstərilməsini, torpaq mülkiyyətçilərinə güzəştli qiymətlərlə mineral gübrələrin satışını həyata keçirir, kənd təsərrüfatı texnikalarının lizinq yolu ilə fermerlərə verilməsini təmin edir. Müasir kənd təsərrüfatı texnikalarının və texnoloji avadanlıqların alınıb gətirilməsi istiqamətində də işlər uğurla davam etdirilib, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xəttilə 136 ədədi 2015-ci ilin 7 ayında olmaqla, cəmi 1641 ədəd müxtəlif təyinatlı müasir kənd təsərrüfatı texnikaları və avadanlıqları alınıb gətirilib.

Mövcud texnika və texnoloji avadanlıqların saxlanılması və yüksəkkeyfiyyətli aqroservis xidmətinin göstərilməsinə əlverişli şərait yaradılıb, 2010-cu ildə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və onun Şərur, Culfa, 2011-ci ildə Sədərək, Kəngərli, Ordubad, 2013-cü ildə isə Şahbuz bazalarında inzibati bina, anbar, texniki park və təmir sexləri tikilib istifadəyə verilib. Hazırda "Naxçıvan Aqrolizinq" ASC-nin bazasında 149 ədəd müxtəlif texnika və avadanlıq vardır. Bunun 36 ədədi Şərur, 31 ədədi Babək, 27 ədədi Culfa, 12 ədədi Sədərək, 12 ədədi Ordubad, 14 ədədi Şahbuz, 17 ədədi isə Kəngərli bazalarına icarəyə verilib.

Ölkə başçısının "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncamına uyğun olaraq, kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri mineral gübrələrin dövlət tərəfindən ödənilməsi təmin edilib. Məhsuldarlığın artırılmasında mühüm rol oynayan mineral gübrələrin alınaraq muxtar respublikaya gətirilməsi və torpaq mülkiyyətçilərinə çatdırılması da diqqət mərkəzində saxlanılıb. Həmçinin sərəncama əsasən, kənd təsərrüfatı texnikalarının hüquqi və fiziki şəxslərə müddətli ödənişlə satılmasına da güzəştlər tətbiq olunub. Belə ki, 2007-ci ilədək satılan kənd təsərrüfatı texnikaları dəyəri 5 il müddətinə ödənilib dəyərinin 120 faizi məbləğində girov qoyulmaqla satılırdısa, 2011-ci ilədək 10 il müddətinə və dəyərinin 20 faizi əvvəlcədən ödənilməsi şərtilə heç bir girov qoyulmadan satılıb. 2011-ci ilin yanvar ayından isə kənd təsərrüfatı texnikaları 10 il müddətinə və dəyərinin 10 faizi əvvəlcədən ödənilməsi şərtilə heç bir girov qoyulmadan satılıb. Bu da, təbii ki, texnikaların hüquqi və fiziki şəxslər tərəfindən alınmasına əlverişli şərait yaradıb, 113 ədədi 2015-ci ilin 7 ayında olmaqla lizinq yolu ilə 1206 ədəd texnika satılıb.

Torpaq mülkiyyətçiləri, fermer və fərdi sahibkarlar daxili bazarı yüksəkkeyfiyyətli yerli kənd təsərrüfatı məhsulları ilə təmin etmək üçün mövcud imkanlardan səmərəli istifadə edir, göstərilən dövlət qayğısından bəhrələnməklə "Kənd təsərrüfatı ili"nə öz töhfələrini verirlər. Bu, sahibkarların maddi rifahının daha da yaxşılaşdırılmasına şərait yaratmaqla bərabər, ölkəmizin, o cümlədən muxtar respublikamızın ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

### Çörək bol olarsa, basılmaz Vətən

Səməd Vurğunun bu məşhur misrası bütün tarixi dövrlər üçün aktualdır. Taxılçılıq kənd təsərrüfatının aparıcı sahəsi kimi daim diqqət mərkəzində saxlanılır və bu sahənin inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilir. Muxtar respublikada strateji əhəmiyyətli məhsula olan tələbatın daxili imkanlar hesabına ödənilməsi istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, 2014-cü ildə 35 min 750 hektar sahədən 103 min 70 ton, bu il isə 36 min 237 hektar sahədən 106 min 282 ton məhsul tədarük olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamla təsdiq etdiyi "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na uyğun olaraq, muxtar respublikamızda ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Muxtar respublikamızda taxılçılığın inkişafı, istehsalın artırılması belə məhsulların saxlanılması üçün anbarların qurulması zərurətini yaradıb, son illər "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində 27 min ton tutuma malik uzunmüddətli və 20 min ton tutuma malik qısamüddətli taxıl ehtiyatı anbarları istifadəyə verilib. Ümumilikdə, muxtar respublikamızda qısamüddətli taxıl ehtiyatı anbarlarının tutumu 43 min 380 tona çatdırılıb. Torpaq mülkiyyətçilərinin istehsal etdiyi taxılın alıcı sarıdan da heç bir problemi yoxdur. Muxtar respublikada taxılçılıqla məşğul olan sahibkarlardan buğdanın hər kiloqramı 30 qəpikdən alınır. Bu, taxılçılığa olan marağın daha da artmasına səbəb olur.

Strateji əhəmiyyətli məhsulun tədarük olunub keyfiyyətlə saxlanılması istiqamətində həyata keçirilən tədbirlər cari ildə də uğurla davam etdirilir, Naxçıvan şəhərində "Bərəkət" Toxumçuluq Təsərrüfatı üçün yeni kompleksin inşası aparılır. Müasir layihə əsasında inşa olunan kompleksin vaxtında istifadəyə verilməsi üçün mövcud imkanlardan səmərəli istifadə edilir. Burada toxum, qüvvəli yem və xammal anbarları istifadəyə veriləcəkdir. Əvvəllər dəyirman kimi istifadə olunan bu ərazidə hər birinin tutumu 500 ton olan 48 bunker vardır. Təmir işlərindən sonra bunkerlər toxumun keyfiyyətlə və uzun müddətə saxlanılmasına imkan verəcəkdir. Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər kənd təsərrüfatı bitkiləri toxumunun da satışı həyata keçiriləcəkdir.

"Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində taxılın tədarük olunub saxlanılması ilə yanaşı, istehsalına da əlverişli şərait yaradılıb, yeni un dəyirmanı istifadəyə verilib. Gündəlik istehsal gücü 200 ton un olan dəyirmanda müasir texnoloji avadanlıqlar quraşdırılıb. Ayrı-ayrı sahələrdə olduğu kimi, un istehsalı sahəsində də regionumuzun perspektiv inkişafı nəzərə alınıb, un tələbatı 65 min tona yaxın olan muxtar respublikamızda illik istehsal gücü 73 min ton olan yeni un dəyirmanı yaradılıb. Bu dəyirman işlərin kompleks şəkildə həyata keçirilməsinə imkan verir. Belə ki, həm taxıl tədarük edilərək ehtiyat yaradılır, həm də un istehsal olunaraq muxtar respublika əhalisinin una, çörəyə olan tələbatı ödənilir.

Dəyirmanda üyüdülən buğdadan 78 faiz un, 22 faiz kəpək alınır. Sifarişə uyğun olaraq, əla, I növ və qara un istehsal edilən dəyirmanda insan orqanizmi üçün vacib elementlərlə zəngin olan yeni çeşiddə kəpəkli un istehsalına başlanılıb. İstehsal prosesi avtomatlaşdırılmış dəyirmanda üyüdülən hazır məhsul 1, 2, 5, 25 və 50 kiloqramlıq kisələrdə "Bərəkət" əmtəə nişanı ilə satışa çıxarılır.

### Naxçıvanın çörək təknəsi

Əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin əsaslı həlli, əhalinin rifah halının yaxşılaşdırılması Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindəndir. Kənd təsərrüfatında məhsul istehsalının stimullaşdırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi məqsədilə həyata keçirilən tədbirlər muxtar respublikanın iqtisadi mənzərəsinin dəyişməsində əhəmiyyətli rol oynayır. Bütün bunlar – iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi özəl sektorun inkişaf etməsinə şərait yaradıb.

Muxtar respublikada həyata keçirilən iqtisadi siyasətin əsas məqsədlərindən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bunun üçün daxili bazarın tələbatına uyğun yerli məhsul istehsal edən müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məhz həmin tədbirlərin nəticəsidir ki, bazar iqtisadiyyatının tələblərinə uyğun rəqabətqabiliyyətli müəssisələr yaradılır. Belə müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətidir.

Dövlət maliyyə dəstəyi ilə müəssisədə 2003-cü ildə çörək, 2004-cü ildə makaron və peçenye, 2005-ci ildə isə süd məhsulları istehsalı sahələri yaradılıb. Bu istehsal sahələrində Almaniya, Türkiyə və İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Müəssisənin fəaliyyətinin genişləndirilməsi, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücünün artırılması, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi məqsədilə Sahibkarlığa Kömək Fondundan 2008-ci ildə əlavə dövlət maliyyə dəstəyi göstərilib. Bu vəsaitlə çörək sexində istehsal gücü saatda 3000 ədəd çörək olan avtomatlaşdırılmış yeni xətt istifadəyə verilib. Burada çörək dəmir üzərində deyil, daş üzərində bişirilir ki, bu da daha keyfiyyətli məhsul istehsalı deməkdir.

Muxtar respublikamızın ayrı-ayrı yaşayış məntəqələrində lavaş və yuxa istehsalı sexləri, rayon mərkəzlərində və iri yaşayış məntəqələrində çörək istehsalı sahələri fəaliyyət göstərir.

*Bir vaxtlar gününü çörək zavodunun qarşısında növbədə keçirib 3 çörək alacağına ümidi belə olmayan muxtar respublika əhalisinin indi qapısına gətirilən bu müqəddəs nemət 20 illik əməyin bəhrəsidir.*

**Kərəm HƏSƏNOV**

***Azərbaycanda kitabçılıq sənətinin inkişafı eramızın XI əsrinə aid edilsə də, bu ərazidə ilk kitabxanalar çox qədim dövrlərdə meydana çıxmışdır. Antik müəlliflərə görə, albanlar hələ bizim eradan əvvəl I əsrdə öz yazılarından istifadə edirdilər. V əsrdə təkmilləşdirilmiş 52 fonemli alban əlifbası mövcud idi. Albanlar öz yazılarından təkcə ölkə daxilində deyil, beynəlxalq yazışmalarda da istifadə edirdilər.***

# Naxçıvanın qədim mədrəsə və kitabxanaları

Tarixdə V-VII əsrlər alban ədəbiyyatının çiçəklənmə dövrü hesab edilir. Alban ədəbi nümunələrindən dövrümüzə Moisey Kalankatlının "Alban tarixi", VII əsr şairi Davdəkin elegiyası və alban hüquqi mənbələri olan kilsə qanunları gəlib çatmışdır.

Azərbaycanda İslam dini qəbul edildikdən sonra isə məscid və mədrəsələrdə kitabxanalar meydana gəldi və kitab mədəniyyəti geniş yayılmağa başladı. Artıq VII-X əsrlərdə Azərbaycanda ədəbiyyat, hüquqşünaslıq və başqa ictimai elmlərlə birlikdə təbiətşünaslıq, riyaziyyat, astronomiya və başqa dəqiq elmlərin yayılması üçün əlverişli şərait vardı.

IX əsrin əvvəllərindən etibarən müsəlman Şərqində mövcud olan elmi ədəbiyyatın xarici dillərdən ərəbcəyə tərcümə olunması elmlərin inkişafını xeyli sürətləndirmişdi. IX əsrdən başlayaraq ərəb xilafətinin ən böyük şəhərləri Dəməşq, Bağdad, Hələb, Bəsrə, o cümlədən Azərbaycanın Ərdəbil, Marağa, Şamaxı, Naxçıvan və başqa şəhərləri təhsil ocaqları, kitabxanaları, məscidləri olan mədəni mərkəzlərə çevrilmişlər. Buradan da belə nəticəyə gəlmək olar ki, Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da kitabxanalar XI əsrdə deyil, IX əsrdən yaranmağa başlayıb. Amma kitabxanalar XI əsrdən inkişaf etmişdir. Bu dövrdən etibarən yaranan əsərlərin qorunub saxlanılması, həmçinin mədrəsələrdə təhsil alan tələbələrin tədris proqramına uyğun dərsliklərin mühafizə olunması üçün kitabxanaların sayı da artmışdır.

Tarixdə XII əsr Azərbaycan mədəniyyətinin intibah dövrü hesab edilir. Naxçıvanda orta əsr müsəlman tədris müəssisələri – mədrəsə, ruhani məhəllə məktəbləri, təkyələr mövcud idi. Eldənizlərin hakimiyyəti dövründə Naxçıvan şəhərində iki böyük mədrəsə tikilmiş və dini xeyriyyə idarəsinə məxsus vəqf kimi fəaliyyət göstərmişdir. Bu mədrəsələrin nəzdində kitabxanalar yaradılmışdır. Mənbələrdən aydın olur ki, Naxçıvan mədrəsələri Möminə xatın və Yusif Küseyiroğlu türbələri ilə əlaqəli olmuşdur. Bu da təsadüfi deyil. Çünki müsəlman Şərqində hökmdar türbələri nəzdində mədrəsə, kitabxana, xəstəxana və sair ictimai müəssisələr olmuş, bu ənənə Azərbaycan Atabəyləri dövründə də davam etdirilmişdir. Həmin mədrəsələrin xərcləri Möminə xatın və Yusif Küseyiroğlu türbələri vəqflərinin gəliri hesabına ödənilirdi. Mədrəsələrdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də öyrədilirdi. Dünyəvi elmlərin tədris edilməsi üçün müəllimlərə dərsliklər gərək idi. Bu dərsliklər Azərbaycan alimlərinin əsərləri ilə yanaşı, əcnəbi müəlliflərin də əsərlərindən ibarət idi. Dərsliklər mədrəsələrin nəzdində yaradılmış kitabxanalarda mühafizə olunurdu.

Naxçıvan Eldənizlər dövlətinin paytaxtı olduğundan elm və mədəniyyətin inkişafına böyük şərait yaradılmışdı. Mənbələrdən aydın olur ki, Şəmsəddin Eldənizin özü Naxçıvanda məktəblər açdırmış, mədrəsələr və məscidlər tikdirmişdir. O dövrdə Naxçıvanla yanaşı, Ordubadda da məscidlərin nəzdində məktəb və mədrəsələr fəaliyyət göstərirdi. Naxçıvanda elm və mədəniyyətin sürətli inkişafı mədrəsələrin nəzdində yaranan kitabxanaların da inkişafına öz təsirini göstərirdi.

XIII yüzillikdə Naxçıvanda təhsil sisteminin əsasını mədrəsələr təşkil edirdi. Uşaqlar 5-6 yaşlarından mədrəsələrə qəbul edilir, 15 yaşınadək burada oxuyur, yazı vərdişlərinə yiyələnir, ayrı-ayrı fənlər haqqında məlumat alır, "Qurani-Kərim"i öyrənirdilər. Mədrəsələrin xərcləri vəqflər hesabına ödənilirdi.

O da qeyd olunmalıdır ki, Naxçıvan mədrəsələrini, mədrəsələrdə müəllim-tələbə münasibətlərini, orada tədris olunan fənləri, ümumiyyətlə, Azərbaycan məktəb tarixini öyrənmək baxımından "Naxçıvan mədrəsələri tədrisinin təsdiqinə dair fərman" dəyərli bir sənəddir.

1263-1284-cü illər arasında imzalanması ehtimal edilən bu fərman, ilk növbədə, Naxçıvanda, geniş miqyasda isə bütün Azərbaycanda və müsəlman Şərqində məktəb və mədrəsələrin olduğunu qəti şəkildə təsdiq etməklə həm də onu sübut edir ki, Naxçıvanda hələ əvvəllər mövcud olmuş məktəb, mədrəsə və kitabxanalar XII əsrin sonlarından daha da sürətlə inkişaf etmişdir. XIII əsrin ilk rübündə dağıntılara məruz qalmış məktəb və mədrəsələr yuxarıda adı qeyd olunan fərmanla yenidən bərpa etdirilmişdir.

Fərmanda XIII yüzillikdə mədrəsələrdə tədris olunan fənlər haqqında dəyərli məlumatlar verilir və aydın olur ki, mədrəsələrdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris olunurmuş. Onu da qeyd etmək lazımdır ki, həmin vaxtlarda mədrəsələrdə tədris olunan dərslikləri alimlər təqribi olaraq üç yerə ayırırlar: Azərbaycanda, Azərbaycandan kənarda və başqa dillərdə çap olunanlar. Bu dərsliklərin gətirilməsi və onların mühafizə edilməsi üçün də həmin mədrəsələrdə kitabxanalar fəaliyyət göstərirdi.

Həmin dövrdə Naxçıvanda fəaliyyət göstərən mədrəsələrdə təkcə naxçıvanlılar deyil, hətta Yaxın və Orta Şərqin bir sıra ölkələrindən uşaqlar təhsil alıb vətənlərinə qayıdırmışlar. Naxçıvanda fəaliyyət göstərən "Mədrəseyi Bəhtaniyyə" və "Mədrəseyi İrşadiyyə" adlı mədrəsələrdə təhsil alan tələbələrin içərisindən görkəmli alimlər yetişmişdir. Gəncə kitabxanasının müdiri işləmiş naxçıvanlı alim Həddad ibn Bekran Əbül-Fəzl ən-Nəşəvi ilk təhsilini Naxçıvan mədrəsələrində almış, sonra müsəlman Şərqinin mühüm elm və təhsil ocaqlarında oxuyaraq elmdə yüksək zirvələr fəth etmişdir. Onun rəhbərlik etdiyi Gəncə kitabxanası Bağdaddakı "Beyütül-hikmə" kimi elmi müəssisə funksiyasını daşımışdır. Bu da onu göstərir ki, Naxçıvanda təhsilin səviyyəsi çox yüksək olmuşdur. Mədrəsələrin nəzdində fəaliyyət göstərən kitabxanaların fondu daim zənginləşdirilmişdir.

XIII-XV əsrlərdə Naxçıvan nəinki Azərbaycanın, bütövlükdə, Şərqin elm və mədəniyyət mərkəzlərindən biri olaraq qalırdı. Bu dövrdə Naxçıvan Hülakülər dövlətinin tərkibində idi. Hülakülər dövlətində təhsilə, elmə diqqət yetirildiyindən Naxçıvanda da elmin inkişafı üçün münbit şərait yaradılmışdır. XIII yüzillikdə yaşayan naxçıvanlı alimlərdən Qazi Nəcməddin Əhməd ibn Məhəmməd Naxçıvani, Həsən ibn Ömər Naxçıvani və başqalarını misal göstərmək olar.

Əslən naxçıvanlı olan görkəmli ensiklopedik alim, filosof Nəsirəddin Tusinin Marağa şəhərində yaratdığı 400000 əlyazmaya malik kitabxanasında 100-dən artıq alim fəaliyyət göstərirdi.

Səfəvilərin hakimiyyəti illərində Naxçıvan mədrəsələrində ilahiyyat dərsləri ilə yanaşı, dünyəvi fənlər, o cümlədən Aristotelin, Mirxondun, Xaqani Şirvaninin, Nizami Gəncəvinin, Hafiz Şirazinin və başqalarının əsərləri, bununla yanaşı, fəlsəfə, astronomiya, cəbr və sair tədris olunurdu. Həmin dövrdə Naxçıvanla yanaşı, Ordubad şəhərində də mədrəsə fəaliyyət göstərirdi. Bu mədrəsə Azərbaycanın hüdudlarından kənarda da məşhur idi. Qonşu ölkələrdən də həmin mədrəsədə təhsil alanlar var idi. Ordubad mədrəsəsi Came məscidinin yanında tikilmiş ikimərtəbəli binada yerləşirdi. Mədrəsə özünün vəqfləri hesabına, həmçinin dükanların, hamam və digər müəssisələrin gəlirləri hesabına maliyyələşdirilirdi. Mənbələrdən aydın olur ki, bu mədrəsədə təhsil alan tələbələrə mədrəsənin gəlirindən 5 axça pul verilirmiş, qalan artıq vəsaiti lazım olanda mədrəsənin və aid olan tikililərin təmirinə sərf edirmişlər. Bunlarla yanaşı, mədrəsənin nəzdində kitabxana da fəaliyyət göstərmişdir.

Səfəvilərin hakimiyyəti dövründə Naxçıvanda bütün elm sahələrində mükəmməl biliyə malik olan elm adamları, alimlər və şairlər yetişmişdi. Türk səyyahı Övliya Çələbi "Səyahətnamə" əsərində qeyd edir ki, o, Naxçıvan hakimi ilə görüşərkən 40-50 nəfər uzaqgörən alim və nədimlə həmsöhbət olmuşdur. Bu dövrdə təkcə Naxçıvanın özündə deyil, başqa bölgələrində, xüsusən də Ordubadda ədəbi simalar çoxluq təşkil edirdi. Bunlardan Mirzə Sadıq Ordubadi, Ziyayi Ordubadi, Hatəmbəy Ordubadi, Münşi Mirzə Zeynalabdin Ordubadi və başqalarını misal göstərmək olar. Bu ədəbi simaların hamısı öz təhsillərini Ordubad mədrəsələrində almışlar.

Ordubad şəhərində olan Zəhir əd-Dövlə Məhəmməd İbrahim mədrəsəsi XVIII yüzillikdə nəinki Naxçıvan bölgəsində, eyni zamanda Azərbaycanda əhəmiyyətli tədris müəssisələrindən biri olmuşdur.

*Yuxarıda deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, Naxçıvanda kitabxanaların yaranmasının ilkin mərhələsi IX əsrdə başlamış, məscid, məktəb və mədrəsələrin nəzdində fəaliyyət göstərmiş, ictimai müəssisə kimi mədrəsələrin gəlirləri hesabına maliyyələşdirilmiş və bu ənənə Azərbaycan Atabəyləri dövründə də davam etdirilmişdir. Hətta mədrəsələrdə mövcud olan kitabxanalarda xazin, mübaddil və sair kimi işçilər çalışmışlar. X-XIII əsrlərdə elm inkişaf etdikcə kitaba olan tələbat artır, nəticədə kitabxanaların sayı artmağa başlayır. XIV-XV əsrlərdən başlayaraq saray kitabxanalarının inkişafı geniş vüsət alır.*

**Aytəkin QƏHRƏMANOVA**
***M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru***

***Naxçıvanın Azərbaycana bəxş etdiyi ilklər***

# Avropaya təhsil almağa gedən ilk azərbaycanlı qızı və ilk qadın fizika-riyaziyyat elmləri namizədi

*Naxçıvan elmi-ədəbi, ictimai-siyasi, mədəni mühitinin Azərbaycan tarixinə, ədəbiyyatına, elminə, mədəniyyətinə bəxş etdiyi ilklərdən bəhs edən rubrikamızda budəfəki yazımızda Azərbaycan tarixində əhəmiyyətli rol oynayan və Azərbaycan elminə ilk töhfələrini verən iki qadın haqqında danışacağıq.*

Tariximizin qəhrəmanlıq səhifələrində Azərbaycan qadının öz şöhrəti, şərəfli yeri vardır. Azərbaycan qadınları ictimai-siyasi proseslərdə həmişə fəal olmuşlar. Onlar arasından görkəmli dövlət, elm, mədəniyyət və ictimai-siyasi xadimlər yetişmişdir. Respublikamız müstəqillik qazandıqdan sonra qadınların cəmiyyətdə rolu daha da yüksəlmiş və fəaliyyətləri genişlənmişdir. Ümummilli liderimiz Heydər Əliyev qadınların dövlət quruculuğunda, elm, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə geniş təmsil olunmalarına müstəsna əhəmiyyət verirdi. Elə bu siyasətin nəticəsi olaraq bu gün qadınlarımız təkcə respublikamızda deyil, ölkəmizin hüdudlarından kənarda da yaxşı tanınır, beynəlxalq qurumlarda ölkəmizi layiqincə təmsil edirlər.

Bildiyimiz kimi, Azərbaycan qadını tarixən müdriklik, müqəddəslik simvolu olmuş, iti zəkası, uzaqgörənliyi və qəhrəmanlığı ilə tariximizdə iz qoymuşdur. Adına 1186-cı ildə Naxçıvanda möhtəşəm türbə ucaldılan Möminə xatın, Gəncədə yaşayıb-yaradan Məhsəti Gəncəvi, Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Sara xatın, Quba xanı Fətəli xanın həyat yoldaşı Tutubikə, 1890-cı ildə Naxçıvanda dünyaya gözlərini açan Nazlı xanım Nəcəfova və daha neçələri… Bu siyahıya haqqında bəhs edəcəyimiz iki qadını da daxil edə bilərik...

Şahtaxtinskaya Leylibanu İsasultan qızı ilk azərbaycanlı ziyalı qadınlardan biridir. O, Şahtaxtinskilər nəslinin nisbətən az tanınan nümayəndələrindən biri olan, publisist, alim və ictimai xadim İsasultan Şahtaxtinskinin qızıdır. 1902-ci ildə Tiflis Qızlar İnstitutunu bitirmişdir. Anası Sofya xanım Şahtaxtinskayanın Tiflis qubernatoruna 2 iyun 1905-ci il tarixli ərizəsindən də göründüyü kimi, Leylibanu Tiflis Nücəba Qızlar İnstitutunu bitirdikdən sonra Peterburq Qadın Tibb İnstitutunda ali təhsil almaq qərarına gəlmişdir. Bu məqsədlə Sofya xanım qızına siyasi baxımdan etibarlı sayılması barəsində arayış verilməsini xahiş edirdi.

Leylibanu Şahtaxtinskaya Peterburq Qadın Tibb İnstitutunda (Bestujev kurslarında) yalnız bir il oxumuş, 1906-cı ilin sentyabrında daha mükəmməl ixtisas təhsili almaq üçün İsveçrəyə yola düşmüşdü.

O, Avropaya təhsil almağa gedən ilk azərbaycanlı qızıdır. İsveçrədə Tibb Universitetinə daxil olmuş, lakin təhsilini başa vurmasına iki il qalmış xəstəlikdən vəfat etmişdir.

Leylibanunun ölümü Cəlil Məmmədquluzadəni də dərindən sarsıtmışdı. Sırf satira jurnalı olan "Molla Nəsrəddin" yaradıcılıq prinsiplərini pozaraq ilk dəfə (sonralar dahi Sabirin və böyük tatar şairi Tukayın vəfatı zamanı da bu hal təkrarlanmışdı) səhifələrində ciddi və kədərli materiala – Leylibanunun vaxtsız vəfatı münasibətilə nekroloqa yer vermişdi.

Bir qayda olaraq, Rotterin, Şmerlinqin, daha sonralar Xəlil Musayev və Əzim Əzimzadənin fırçasından çıxan dərin məzmunlu karikaturalarla səhifələrini bəzəyən məcmuə 1908-ci ildə çıxan sonuncu – 52-ci sayında Leylibanu Şahtaxtinskayanın vəfatının bir illiyi münasibətilə onun qara çərçivəyə alınmış portretini dərc etmişdi.

Mirzə Cəlil Leylibanunun qısa bioqrafiyası ilə oxucuları tanış etməyi də zəruri saymışdı. O yazırdı: "Sahibiмənsəblərimizdən məşhur İsasultanın qızı Leyli xanım Şahtaxtlı anadan olub 1886-cı ildə Qars şəhərində. 1904-cü ildə Tiflisdə Qızlar İnstitutunu bitirəndən sonra 1906-cı ilin sentyabr ayında gedib Şvetsariyaya və orada darülfünunun həkimlik şöbəsinə girib və Hacı Zeynalabdin Tağıyev cənablarının köməyi ilə üç il orada təbabət elmini oxumaqda idi. İki ildən sonra həkimlik dərsini qurtarıb şəhadətnamə alacaq idi və gəlib vətənində biçarə müsəlman övrətlərinin min-min dərdlərinə şəfa verəcəkdi..."

Bu tərcümeyi-hal bilgilərinin ardınca Mirzə Cəlilin səmimi ürək sözləri və özünəməxsus ümumiləşdirmələri gəlir:

"Əfsus... Qismət olmadı...

Leyli xanım keçən il Şvetsariyada soyuqdəymədən vəfat elədi.

Yevropaya elm dalınca gedən müsəlman qızlarından biz Leyli xanımdan savayı bir özgəsini eşitməmişik.

"Molla Nəsrəddin"in arzularından xəbərdar olanlar gərək bilsinlər ki, belə bir vücudun yox olmağı bizim üçün təskinsiz dərddir".

Leylibanu Şahtaxtinskaya öz iradəsinin gücü və mübarizə əzmi ilə sübut etmişdi ki, Azərbaycan qızlarının ağlı və intellekti heç də başqa millətlərin qadınlarından az deyil.

Qeyd edək ki, İsasultan Şahtaxtinskinin ailəsində yetişmiş başqa bir gənc xanım – Leylibanunun kiçik bacısı Adilə xanım Şahtaxtinskaya ilk azərbaycanlı qadın tibb professorlarından idi. O, Azərbaycanı beynəlxalq miqyasda təmsil edən məşhur ginekologiya mütəxəssisi kimi tanınmış, tibb elminin həmin sahəsinə dair kitab və məqalələr yazmışdır.

Zərifə Əliyarova 1935-ci il may ayının 8-də Naxçıvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. Anası çox cavan ikən dünyasını dəyişdiyindən o, kiçik yaşlarından valideyn nəvazişindən məhrum olmuş, üstəlik də, atası repressiyaya məruz qalaraq Qazaxıstana sürgün edilmişdi. Ona görə də Zərifə xanım uşaqlıqdan həyatın ağrı-acılarını yaşamışdır. 1951-ci ildə Naxçıvan şəhərindəki 2 nömrəli qız orta məktəbini əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinin Fizika ixtisasına qəbul edilmişdir. Universitetdə keçirilən Tələbə Elmi Cəmiyyətinin yığıncaqlarında müntəzəm iştirak etmiş, maraqlı tədqiqatları ilə müəllimlərinin diqqətini çəkmişdir. Zərifə Əliyarova universitetin 1956-cı il buraxılışında fiziklər arasında yeganə qırmızı diplom alan gənclərdən biri olur. Hətta onun yazmış olduğu buraxılış işi AMEA-nın "Xəbərlər" jurnalında çap edilir. O, sonra akademik Yusif Məmmədəliyevin təqdimatı ilə Azərbaycan Elmlər Akademiyasının Fizika-Riyaziyyat İnstitutunun aspiranturasına daxil olur, 1959-cu ildə yarımkeçiricilər fizikası sahəsində namizədlik dissertasiyasını müdafiə edir. Azərbaycanlı qadınlar arasında ilk fizika-riyaziyyat elmləri namizədi adını qazanır. 1975-ci ildə doktorluq dissertasiyasını müdafiə edir. Həmin dövrdə Zərifə Əliyarovanın adı bütün SSRİ məkanında və xarici ölkələrdə yarımkeçiricilər fizikası ilə məşğul olan görkəmli alimlərlə bir sırada çəkilirdi.

Bəli, qadınlarımız öz zəkası, nüfuzu və müdrikliyi ilə bəşər tarixində özünəməxsus iz salmışlar. Dahi dramaturqumuz Hüseyn Cavidin dediyi kimi: "Qadın gülərsə, bu ıssız mühitimiz güləcək, sürüklənən bəşəriyyət qadınla yüksələcək..."

**Nərgiz İSMAYILOVA**

## Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzində mülki müdafiə təlimi keçirilmişdir



*Avqustun 19-da Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzində "Fövqəladə halların tibbi-sanitar nəticələrinin aradan qaldırılması zamanı sanitar-epidemioloji xidmətinin ixtisaslaşdırılmış qurumlarının fəaliyyətinin təşkili" mövzusunda təlim keçirilmişdir.*

Təlimin keçirilməsində məqsəd sanitar-epidemioloji xidmətinin ixtisaslaşdırılmış qurumlarının hazırlığını yoxlamaq, fövqəladə halların qarşısının alınmasına və ləğvinə yönəldilmiş sanitariya-gigiyena və əks-epidemik tədbirlərin təşkili və həyata keçirilməsində, yeyinti məhsulları, ərzaq xammalı və içməli suyun zərərsizləşdirilməsinin tamlığı üzərində laborator nəzarətin aparılmasında şəxsi heyətin əməli vərdişlərini təkmilləşdirmək, xəstəlik mənbələrinin epidemioloji müayinəsi və mənbədə yoluxucu xəstəliklərin təhlili üzrə fəaliyyəti təşkil etmək, ictimai iaşə müəssisələrinin, su təchizatı obyektlərinin fəaliyyətlərində sanitar-gigiyenik rejimin üzərində nəzarəti təşkil etməkdən ibarət olmuşdur.

Tədbiri Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Tağı Axundov açaraq təlimə hazırlıqla bağlı görülən işlər, sanitar epidemioloji xidmətinin ixtisaslaşdırılmış qurumlarının hazırlıq səviyyəsi, təminat və təchizat məsələləri barəsində ətraflı məlumat vermişdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Sona Məmmədova muxtar respublika ərazisində ehtimal olunan fövqəladə halların tibbi-sanitar nəticələrinin aradan qaldırılmasında sanitar-epidemioloji xidmətinin ixtisaslaşdırılmış qurumlarının qarşısına qoyulmuş vəzifələrdən, bu təlimin əhəmiyyətindən danışmışdır.

Təlimin rəhbəri, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov sanitar-epidemioloji xidmətinin ixtisaslaşdırılmış qurumlarının hazırlığına qoyulan tələbləri diqqətə çatdırmışdır.

Təlimin birinci mərhələsində sanitar-epidemioloji xidmətinin ixtisaslaşdırılmış qurumlarının və digər obyekt mülki müdafiə qüvvələrinin təchizatı və hazırlığı, ikinci mərhələdə isə 6 tədris yerində epidemiya əleyhinə səyyar dəstənin, epidemioloji kəşfiyyat qrupunun, toksikoloji, bakterioloji, qida və kommunal laboratoriyaların, eləcə də obyekt mülki müdafiə qüvvələrinin əməli fəaliyyəti yoxlanılmışdır.

Təlimə Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun yerli qurumlarından 82 nəfər şəxsi heyət, 5 ədəd tibb, 1 ədəd xüsusi təyinatlı avtomobil cəlb olunmuş, müxtəlif təyinatlı tibbi avadanlıqlardan və cihazlardan istifadə edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Gənclərin növbəti "Yay məktəbi" başlayıb



Ağbulaq İstirahət Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən növbəti "Yay məktəbi" keçirilir.

Naxçıvan Müəllimlər İnstitutunda və Naxçıvan Tibb Kollecində təhsil alan 50 fəal gəncin iştirak etdiyi "Yay məktəbi"nin ilk günündə Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla həyata keçirilən dövlət gənclər siyasəti və bu sahədə görülən ardıcıl tədbirlərdən danışıblar. Qeyd olunub ki, bu gün muxtar respublikamızda gənclərin asudə vaxtının səmərəli təşkili, intellektual inkişafının təmin edilməsi, onların gələcəyin əsl vətəndaşı kimi yetişdirilməsi üçün hər cür şərait yaradılıb. Gənclər üçün belə tədbirlərin təşkil olunması isə artıq ənənə halını alıb. "Yay məktəbi" gənclərin asudə vaxtlarını səmərəli keçirmələrinə xidmət edir.

Gənclər onlar üçün yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

"Yay məktəbi"ndə gənclər əvvəlcədən müəyyənləşdirilmiş günün nizam qaydasına uyğun olaraq hərəkət edəcəklər. Burada müxtəlif idman oyunları, müsabiqələr, intellektual yarışlar, seminarlar təşkil olunacaq və Azərbaycan filmləri nümayiş etdiriləcək.

Qeyd edək ki, növbəti "Yay məktəbi"ndə isə Naxçıvan Musiqi və Dövlət Texniki kolleclərinin tələbələri iştirak edəcəklər.

## Konsert-tamaşa və klub müəssisələri işçiləri üçün seminar

*Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə konsert-tamaşa və klub müəssisələrində sənədləşmə işinin təşkili üzrə seminar keçirilib. Seminarı nazirliyin şöbə müdiri Həsən Kərimov açıb.*

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin direktoru Nizami Əzizəliyev "Klub işinin planlaşdırılması" mövzusunda çıxışında mədəniyyət evləri, klub və mədəni-maarif müəssisələrinin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin vacibliyini vurğulayıb. Bildirib ki, adıçəkilən müəssisələr asudə vaxtın təşkili, mənəvi tərbiyə və vətənpərvərlik, milli dəyərlərin qorunmasında böyük məsuliyyət daşıyırlar. Klub işinin əsas istiqamətlərindən biri vətəndaşların estetik tərbiyəsində fəal iştirak etmək, xalq yaradıcılığı ilə bağlı tədbirlər təşkil etməkdir. Bu işlərin düzgün qurulmasında illik və rüblük iş planlarının tərtibinə də diqqət yetirmək lazımdır.

Nazirliyin sektor müdiri İman Alırzayev "Kargüzarlıq işinin ümumi qaydaları", nazirliyin əməkdaşı Cəfər Əsədov isə "Kadr sənədlərinin işlənməsi" mövzularında çıxış ediblər.

Seminarda slaydlar nümayiş etdirilib və iştirakçıların sualları cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Şahbuz rayonu üzrə 2015-2016-cı tədris ilində pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S/№ | Məktəbin adı | Rayon mərkəzi ilə məktəblər arasındakı məsafə (km) | Azərbaycan dili və ədəbiyyat | | Riyaziyyat | | Tarix | | Xarici dil | | Coğrafiya | | Fizika | | Kimya | | Biologiya | | İTPM | | Fiziki tərbiyə | | Gənclərin çağırışaqədərki hazırlığı | | Cəmi: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1. | Mahmudoba kənd tam orta məktəbi | 6 | | | | | | | | | 1 | 12 | 1 | 13 | | | | | | | | | | | 2 | 25 |
| 2. | Nursu kənd tam orta məktəbi | 12 | | | | | | | | | | | 1 | 13 | | | 1 | 12 | 3 | 54 | | | | | 5 | 79 |
| 3. | Güney Qışlaq kənd tam orta məktəbi | 17 | | | | | 1 | 12 | | | 1 | 12 | | | | | 1 | 12 | 1 | 18 | | | | | 4 | 54 |
| 4. | Yuxarı Qışlaq kənd tam orta məktəbi | 17 | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 |
| 5. | Gömür kənd tam orta məktəbi | 22 | | | | | | | | | | | | | | | 1 | 12 | | | 1 | 14 | | | 2 | 26 |
| 6. | Ağbulaq kənd tam orta məktəbi | 16 | 1 | 12 | | | | | | | | | 1 | 13 | | | 1 | 12 | 1 | 18 | | | | | 4 | 55 |
| 7. | Badamlı kənd tam orta məktəbi | 14 | | | | | | | | | | | 1 | 13 | | | | | 1 | 18 | | | | | 2 | 31 |
| 8. | Türkeş kənd tam orta məktəbi | 13 | | | | | | | 1 | 18 | 1 | 12 | | | 1 | 12 | 1 | 12 | 3 | 54 | 1 | 14 | | | 8 | 122 |
| 9. | Şada kənd tam orta məktəbi | 22 | | | | | | | 1 | 18 | 1 | 12 | | | 1 | 12 | 1 | 12 | 3 | 54 | | | | | 7 | 108 |
| 10. | Aşağı Qışlaq kənd tam orta məktəbi | 13 | | | | | | | | | | | | | | | | | | | 1 | 14 | | | 1 | 14 |
| 11. | Daylaqlı kənd tam orta məktəbi | 4 | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 |
| 12. | Sələsüz kənd tam orta məktəbi | 5 | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | 1 | | 2 | 12 |
| 13. | Badamlı qəsəbə tam orta məktəbi | 8 | | | | | | | 1 | 12 | | | | | | | | | 2 | 36 | | | 1 | | 4 | 48 |
| 14. | Şahbuzkənd tam orta məktəbi | 7 | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 |
| 15. | Kolanı kənd tam orta məktəbi | 10 | | | | | | | 1 | 12 | | | | | 1 | 12 | 1 | 12 | | | | | | | 3 | 36 |
| 16. | Kükü kənd tam orta məktəbi | 16 | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | 1 | 12 |
| 17. | Külüs kənd tam orta məktəbi | 14 | | | | | | | 1 | 18 | | | | | | | | | | | | | | | 1 | 18 |
| 18. | Qızıl Qışlaq kənd tam orta məktəbi | 7 | | | | | | | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | 2 | 24 |
| 19. | Keçili kənd tam orta məktəbi | 20 | | | 1 | 12 | | | 1 | 12 | | | | | | | | | | | | | | | 2 | 24 |
| 20. | Ayrınc kənd tam orta məktəbi | 3 | | | | | | | 1 | 18 | | | | | | | | | | | | | | | 1 | 18 |
| | **Cəmi:** | | 1 | 12 | 1 | 12 | 1 | 12 | 7 | 108 | 8 | 96 | 4 | 52 | 3 | 36 | 10 | 120 | 14 | 252 | 3 | 42 | 2 | | 54 | 742 |

## Kəngərli rayonu üzrə 2015-2016-cı tədris ilində pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S/№ | Məktəbin adı | Rayon mərkəzi ilə məktəblər arasındakı məsafə (km) | Xarici dil | | Riyaziyyat | | Tarix | | Coğrafiya | | Fizika və astronomiya | | Kimya | | Biologiya | | Fiziki hazırlıq | | İTPM | | Cəmi: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1. | Qıvraq qəsəbə tam orta məktəbi | | 1 | 12 | | | | | | | 1 | 12 | 1 | 12 | | | | | 1 | 18 | 4 | 54 |
| 2. | Qarabağlar kənd 2 nömrəli tam orta məktəbi | 4 | | | | | | | | | | | | | | | 1 | 12 | | | 1 | 12 |
| 3. | Şahtaxtı kənd tam orta məktəbi | 3 | | | | | | | 1 | 12 | | | | | | | | | 1 | 18 | 2 | 30 |
| 4. | Xok kənd tam orta məktəbi | 5 | | | 2 | 36 | | | | | | | | | 1 | 12 | | | 1 | 18 | 4 | 66 |
| 5. | Qabıllı kənd tam orta məktəbi | 7 | 1 | 18 | | | 1 | 12 | | | 1 | 12 | 1 | 12 | | | | | 2 | 36 | 6 | 90 |
| 6. | Böyükdüz kənd tam orta məktəbi | 16 | | | | | | | | | | | | | 1 | 12 | 1 | 12 | | | 2 | 24 |
| 7. | Yeni Kərki kənd tam orta məktəbi | 14 | | | 1 | 18 | | | 1 | 10 | | | | | 1 | 12 | | | 1 | 18 | 4 | 58 |
| | **Cəmi:** | | 2 | 30 | 3 | 54 | 1 | 12 | 2 | 22 | 2 | 24 | 2 | 24 | 3 | 36 | 2 | 24 | 6 | 108 | 23 | 334 |

### *İtmişdir*

Məmmədov İbrahim Hüseyn oğlunun adına olan 0200394162 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Sədərək kənd sakini Həsənova Dilarə Qurban qızının adına olan 2280A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Qarabağlar kəndində yaşamış Məmmədova Atikə Əli qızının adına olan 1460A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Nağdəliyev Elvin Qəmbər oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Əliyev Samir Məmməd oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 637